**UOT 75**
https://doi.org/10.59849/2311-8482.2025.4.334

**SEVİNC SEYİDOVA***

# ÜZEYİR HACIBƏYLİ VƏ DİNİ DƏYƏRLƏRƏ YENİ YANAŞMA

*Məqalədə dahi bəstəkar, pedaqoq, dramaturq, publisist, musiqişünas alim, ictimai xadim Üzeyir Hacıbəylinin dini məsələlərə çoxşaxəli yanaşması araşdırılır. Onun pubisistik yaradıcılığında dinin təhrif olunmuş formalarının cəmiyyətdə yaratdığı mənfi təsirlər və bu yanlış təbliğatla mübarizənin vacibliyi vurğulanır. İslam dünyasında baş vermiş tarixi hadisələrlə bağlı keçirilən dini mərasimlərin, xalq tamaşalarının klassik opera janrının yaranmasında mühüm təsiri açıqlanır. Mənəvi axtarış, Tanrı ilə ünsiyyət və insanın daxili dünyasının musiqi ilə ifadəsi məqalənin əsas istiqamətini təşkil edir. Üzeyir Hacıbəylinin musiqisində dini mövzu və bu tendensiyanın Azərbaycan bəstəkarlarının yaradıcılığında davam etdirilməsi məsələləri də məqalədə işıqlandırılır.*

***Açar sözlər:*** *Üzeyir Hacıbəyli, islam dini, dini musiqi, şəbih,"Qurani-kərim", dərviş*

## Giriş

Üzeyir Hacıbəyli Tanrının Azərbaycan xalqına bəxş etdiyi dahi şəxsiyyətlərdəndir. Vətənini, millətini, xalqını, dilini, dinini sevən sənət fədaisi kimi Üzeyir bəy Azərbaycan mədəniyyətinin inkişafında yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Müasir düşüncə, analitik təfəkkürə malik sənətkar eyni zamanda tarixi köklərinə, milli mənsubiyyətinə arxalanan islam etiqadlı bir alim kimi xalqın maariflәndirilməsinə, elmin və dini biliklərin harmoniya şəklində inkişaf etməsinə böyük önəm verirdi. Üzeyir Hacıbəyli, dini məsələlərə qarşı çoxşaxəli yanaşması ilə diqqəti cəlb edir. O, publisistik yaradıcılığında dinin, mədəniyyətin və sosial dəyişikliklərin qarşılıqlı təsirini diqqətə alaraq, yeni dövrün insanına layiq olan doğru dini və əxlaqi anlayışları formalaşdırmağa çalışırdı. Üzeyir Hacıbəyli, öz dövründə dinin və mədəniyyətin qarşılıqlı təsirini dərindən anlamış və dini məsələlərə böyük diqqət ayırmışdır. O, milli mədəniyyətin inkişafını müdafiə etməklə yanaşı dinin insan həyatında tutduğu yeri mənəviyyat təmizliyi baxımından qiymətləndirmişdir. "Azərbaycan musiqi həyatına bir nəzər" məqaləsində Üzeyr bəy yazır: *"Musiqinin ehtiyacati-dünyəviyyədən əlavə dini mərasimlərdə də istemalı Azərbaycan türkləri arasında adətdir"*.[4, s.382] O, dünyəvi musiqi ilə dini musiqinin hər birinin özünəməxsus üslubu olmasını qeyd edir. Məlumdur ki, Quran İslam dünyasının bir ədəbi abidəsi olub, ədəbiyyatşünalıq, dilçilik, incəsənətin xəttatlıq, memarlıq, musiqi kimi sahələrinə öz təsirini göstərmişdir. Quranda qiraətin (tilavətin) aramla oxunması nəzərdə tutulur. Xüsusi ahənglə oxunuş isə təcvid adlanır. Təcvid Quran qiraətinə xüsusi gözəllik, musiqi ahəngi verir, ilahi müdrikliyi əks etdirir. *"Azərbaycanda dini ruhda bir musiqi varsa da, o da Quranın avaz ilə oxunduğu musiqidir ki, dünyəvi musiqiyə məxsus olan muğam və dəsgahlara heç bir münasibəti olmayıb, xüsusi üslubu vardır"* [4, s.382].

Üzeyir Hacıbəyli dini baxışlarında, öz xalqının milli dəyərlərini və mədəniyyətini qorumağın vacibliyini vurğulamışdır. O, dinin insanların mənəvi həyatında rolunu nəzərə alaraq, milli və dini kimliyin birləşməsinin vacibliyini qeyd etmişdir. Bu baxımdan o, dini ayinlərin, təhsil və maarifləndirmənin xalqın ruhuna təsirini önə çəkmişdir. *"Bir para yerlərdə məhərrəm ayında "Aşura günü" qətl mərasimi əsnasında ...........şəbeh çıxarmaq məşhur bir vaqeədir"* [4, s.382]. Əsrlər öncə Məhərrəm ayında Kərbəla döyüşündə İmam Hüseyn və onun ailəsinin qətlə yetirilməsi İslam dünyasında matəm günü kimi qeyd olunur. Bu faciə ilə bağlı dini mərasimlər keçirilir, tamaşalr göstərilirdi. Dini-mistik məzmununa görə bir çox maarifçi, dramaturq, yazıçılar Şəbih tamaşalarını tənqid edib, mənəviyyatımıza zidd olduğunu bildirsələr də, Üzeyir bəy şəbehləri Qərb musiqisində bir növ dini tamaşa olan oratoriyalara bənzədirdi. Kərbəlada baş verən hadisələr Məhəmməd Peyğəmbərin nəvəsi Hüseyn ibn Əli ilə Əməvi xəlifəsi I Yezid arasında qeyri-bərabər qüvvələrlə müharibə, qəhrəmanlıq, sədaqət, şəhadətdən bəhs edən bu tamaşalar əslində opera janrının ilk tumurcuqları idi. "Opera və dramın tərbiyəvi əhəmiyyəti haqqında" məqaqləsində

Üzeyir bəy yazır: *"Bizim "Şaxsey" misteriyamız da "Şəbih" adlanan səhnə tamaşası şəklini alaraq vokal, bəzi yerlərdə isə instrumental musiqi ilə müşayət olunur"* [5, s.167]. Qeyd etmək lazımdır ki, Azərbaycanın Qarabağ bölgəsində musiqi məktəblərində gənclərə ifaçılıqla yanaşı məhərrəmlik təziyələrində iştirak etmək üçün dini musiqi nümunələri – növhə, mərsiyə, sinəzən öyrədilirdi. Bu gənclərlə bərabər peşəkar xanəndələr, müğənnilərin iştirak etdiyi şəbihlərdə solo vokal, instrumental nömrələr xor nömrələri ilə ardıcıl növbələşir, döyüş səhnələrinin təsir effektini yaratmaq üçün bəzən hərbi orkestr də dəvət olunurdu. Beləliklə, Üzeyir Hacıbəylinin gəldiyi qənaətə görə *"Tarixçi və alimlərin fikrincə, bütün xalqlarda dramın mənşəyi dinlə bağlıdır, musiqi isə dram tamaşalarının mühüm ünsürünü təşkil edir. Qədim xristian-katoliklərin liturgiya dramlarında, yaxud misteriyalarında "operanın başlıca ünsürlərinə təsadüf olunurdu: opera özü bunlardan törənmişdir"* [5, s.167].

Üzeyir bəy elmi və dini anlayışların bir-birini tamamladığını, insanların elmə olan marağını artırmağın, həm də dini anlayışları düzgün şəkildə izah etməyin vacibliyini vurğulayırdı. Hacıbəyli özünün bir çox publisistik məqalələrində dinin təhrif olunmuş formalarının cəmiyyətdəki mənfi təsirlərinə diqqət çəkmiş və bu yanlış təbliğatla mübarizə aparmağın zəruriliyini vurğulamışdır.

"İran işləri" səhnəciyində İran şahı ilə ingilis və rus səfirlərinin söhbəti əsnasında məşrutə (konstitusiya) məsələləri müzakirə olunur. Şahın bu məsələni şəriətlə bağlayaraq donuz əti, çaxır kimi məclis açmağın da haram olması söyləməsi səfirlər tərəfindən təəccüblə qarşılanır. Onlardan biri *"Məhəmməd peyğəmbər heç bir yerdə deməyibdir ki, məşrutə və məclis haramdır. Və saniyən sizin şəriətinizdə var ki, əgər şərab bir naxoşluğa dərmandırsa, o halda şərab naxoş üçün halaldır. İndi də sizin İran naxoşdur və bunu dərmanı məşrutədir. Ona görə biz əminik ki, şəriət buna yol verər"* [3, s.391]. Bu səhnəcikdə Üzeyir bəy İran kimi bir ölkədə daxili və xarici mühafizəkar qüvvələrin din-şəriət qanunlarından öz mənafeləri üçün istifadə edərək cəmiyyətin tərəqqisinə hər cür maneələr yaratdıqlarını təsvir edir. "Çoban" adlı felyetonda ədib bədii, publisist tarazlığı saxlamaqla bərabər dinlə bağlı ciddi mətləbləri də üzə çıxarır: *"Bir çoban bir dəfə qoyun otardığı yerdə azan səsi eşidir. Rəvayət edirlər ki, çoban azan nə olduğunu bilmirmiş, ona görə yoldan ötən bir kişidən təlaş ilə soruşur ki, bu nə oxumaqdır ki, səsi eşidilir? Kişi cavab verir ki, bu azandır. Çoban təkrar soruşur ki, bu azan oxumağın qoyunlara bir zərəri yoxdur ki? Kişi deyir ki, yoxdur. "Onda, qoy, nə qədər keyfi istəyir, oxusun" deyə çoban arxayın olur...."* [5, s.291].

Hacıbəyli, bir çox əsərlərində dinin təhrif olunmuş formalarının cəmiyyətdəki mənfi təsirlərinə diqqət çəkmiş və bu yanlış təbliğatla mübarizə aparmağın zəruriliyini vurğulamışdır. İslam dövlətlərində dindən uzaqlaşanları mühakimə etmək üçün təkfir (insanın kafir olduğunu sübuta yetirmək) edirdilər. Ədib "Qoy üfürsünlər" felyetonunda yazır: *"Mən burasını yaxşıca anlayıram ki, bir molla bir kafiri müsəlman edə bilər. Amma burasını heç qana bilmirəm ki, molla müsəlmanı kafir etsin!.........Allah taala Məhəmməd Əleyhissəlamı göndərdi ki, kafirləri müsəlman etsin. Məhəmməd Əleyhissəlam dəxi etdi.*

*Aya, bəs mollanümalara kim tapşırdı ki, Məhəmməd Əleyhissəlam müsəlman edən adamları kafir eləsinlər?"* [5, s.372].

Məlum olduğu kimi, Üzeyir Hacıbəyli publisistik əsərlərini müxtəlif imzalarla -"Filankəs", "Behmənkəs", "Bisavad", "Lal uşaq", "Ü.H.", "Ü.Hacıbəyli", "Musiqiçi" və s. adlarla dərc etdirirdi. Bunların içərisində "Filankəs" imzası xüsusilə diqqəti çəkir. "Qoy üfürsünlər" felyetonunda Ramazan ayında müctəhid Şeyx Fəzlullahın məşrutə (konstitusiya) tələb edən müsəlmanları kafir adlandırması və onlara ərzaq göndərənlərin təkfir olunacağı ilə hədələməsindən hiddətlənən ədib *"Qoy müctəhid Mirzə Həsən desin ki, filankəs kafirdir, çünki Təbriz aclarına çörək gətiribdir. Aya, görək onda mən filankəsin dili la ilahə illəllah tutmazmı?......... Mən təkfirdən nə üçün qorxum? Və ac müsəlmanları ramazan günündə çörəksiz qoyum?!"* [5, s.373].

"Təhsi" adlı satirik hekayəsində millətin elmli, savadlı olmasına qarşı çıxan əqidəsiz, məsləksiz axund satira atəşinə tutulur: *"Axund, hesab elmini oxumaq haramdır, yoxsa halal?"* sualına axund *"Haramdır!"* deyə cavab verir. *"Bəs bu elm necə ki, məsələn mən istəyirəm biləm, cibimə nə qədər pul qoyum ki, putu 6 manatdan 2 kəllə qənd və girvənkəsi 2 manatdan 5 girvənkə çay alıb, üstünə də nəqd 15 manat pul qoyub bir axunda göndərim"* sözlərindən şirniklənən axund

din məsələsini cib məsələsi ilə uzlaşdırıb *"O cürə elmi oxumaq nə haramdır, nə də halal, ancaq savabdır"* deyə cavab verir. [3, s.342].

Üzeyir Hacıbəyli, cəmiyyətin dini baxışlarının sosial dəyişikliklərlə əlaqədar olaraq inkişaf etdiyini görürdü. O, dinin insanın əxlaqına və sosial davranışlarına necə təsir göstərdiyini dəfələrlə müzakirə etmişdir. Onun fikrincə, din, eyni zamanda cəmiyyətin hüquqi və əxlaqi quruluşunun formalaşmasında əhəmiyyətli rol oynamalıdır. "Vladiqafqaz camaatına bir də açıq məktub" məqaləsində Üzeyir bəy yazır: *"Peyğəmbərimiz dini-mübini-islami yer üzünün bir çox nöqtələrinə yaydı. İslam əhlini artırdı, islamiyyətin çoxalması yolunda mücahidlərdə bulundu.Sizlər isə islam əhlini artırmağa çalışmaq əvəzinə, "küfr və irtidad" vasitəsilə azaltmağı təklif edirsiniz...........hər günah üstə müsəlmanı kafir və mürtəd edərsək, o halda ruyi-zəmində bir cüt yarım müsəlman da qalmaz"* [5, s.275].

Ü.Hacıbəyli maarifçi baxışları və mütərəqqi düşüncələri olan çox maraqlı şəxsiyyət idi. Öz məqalələrində din xadimlərinin elmsizliyindən dinin necə təhrif olunduğu və insanların dini savadsızlığının hansı faciələrə səbəb olduğunu üzə çıxarırdı. "Əl fitnətü naimün lənəllahu eyqəzuha...." felyetonunda insanların sadəlöhvlüyündən istifadə edən bir sıra fitnəçi işbazların xalq arasında nifaq salması, millətin tərəqqisinə mane olması məsələləri işıqlandırılır: "*Fitnəçilərin həyasızlıqlarına bax ki, rifah və səadət səlaməti-insaniyyət olan dini-Məhəmmədi aləti-fitnə və fəsad qayırıb, əfradi-millət arasında nifaq və şəqq salırlar........Bu cür alçaqlara deyilməlidir ki, əvvələn, dini-islamı ələ salmayın, o din siz kimi mənbəi-fəsarlara möhtac ola bilməz"* [5, s.391].

O, "Azərbaycan türklərinin musiqisi haqqında" məqaləsində musiqinin yalnız duyğuları tərpədən bir sənət deyil, həm də insani mahiyyəti dərk etdirməyə qadir bir qüvvə, ilahi həqiqətə, varlıq sirrinə aparan yollardan biri kimi qiymətləndirir: "*Qədim fars kitablarından musiqiyə aid olan birində müqəddimə olmaq üzrə böylə bir şey yazıldığını oxudum ki, Adəm əleyhüssəlam torpaqdan yarandıqdan sonra ruha əmr olundu ki, onun bədəninə daxil olsun; lakin ruh təkəbbürlük edib, torpaqdan yaranmış olan bir bədənə girmək istəmədi; o halda Cəbrayıl əleyhüssəlam nazil olub "Rast" muğamında bir hava oxurkən, ruh bu havanın təsirindən Adəmin bədəninə bir rəğbət hiss edib, həmən dəm bilatərəddüd bədənə daxil oldu... Budur ki, "elm-musiqiyə" "elm ruh" deyilir"* [6, s.20]. Ü.Hacıbəylinin bu fikirləri musiqinin insan varlığının yaranışından nə qədər böyük qüvvəyə malik olduğunu göstərən ən fundamental enerji mənbəyi olduğunu bir daha təsdiqləyir. Əsərdə qeyd olunduğu kimi "Rast" muğamının oxunması nəticəsində ruhun bədənə daxil olması, musiqinin yalnız estetik deyil, həm də metafizik güc daşıdığını simvolizə edir. Bu, Azərbaycan musiqi mədəniyyətində muğamın yüksək fəlsəfi və ruhani dəyərini ön plana çıxarır. Muğam burada ruhla maddi varlıq arasında körpü rolunu oynayan ilahi bir vasitə kimi təqdim olunur. Azərbaycan muğamları arasında məhz "Rast" muğamının seçilməsi də təsadüfi deyil. "Rast" fars dilindən tərcümədə "doğru", "dürüst" deməkdir. Bu da onu göstərir ki, ruhun bədənə daxil olması "doğru yol"la, yəni musiqi ilə mümkün olub. Nəticədə belə bir fikir formalaşır ki, musiqi insanın yalnız tarixi və mədəni yaddaşı deyil, həm də onun ilahi mənşə ilə olan bağlılığını da özündə daşıyır.

Dini nsanlar üçün bir zülmətə çevirən mollaları, savadsız, cahil insanları ifşa etsə də, Ü.Hacıbəylinin yaxın ailə üzvlərinə, dostlarına yazdığı şəxsi məktublarında özünün mənəviyyat dayağı olan Tanrıya inamının, sevgisinin şahidi oluruq. "Allaha şükür", "Allahın köməkliyi ilə", "Allah xatirinə" və bu kimi ifadələr işlətdiyi bu məktublarda Üzeyir bəyin ali mənəvi dəyərlərə necə hörmət etdiyinin şahidi oluruq.

Ü.Hacıbəyli dramaturq, yazıçı, publisist, həm də şair kimi öz qələmini bu sahələrdə sinayaraq, musiqinin müxtəlif janrlarında yazdığı bir çox əsərlərin ədəbi mətninin müəllifi də özü olmuşdur. Üzeyir bəy ana xətti ilə ona qohum olan yazıçı, ictimai xadim Yusif Vəzir Çəmənzəminlinin təklifi ilə xalqın milli oyanışı, mübarizlik ruhunun yüksəlişinin təminatı üçün "Milli marş" yazır. Musiqisi və sözləri Üzeyir Hacıbəyliyə məxsus olan bu əsər Azərbaycan tarixində milli azadlıq mövzusunda ilk marş idi. Türk marşlarına xas olan qəhrəmani ruhda yazılmış bu əsərin musiqisi "Rast" məqamındadır. Kvarta çərçivəsində verilən melodik quruluşda punktir ritmlə birgə triollar da marşın musiqisinin intonasiya vurğularını daha qabarıq göstərir.

Vurulur meydanda sinci-dəf

Düzülür əsgərlər səfbəsəf
Yeriyir şövqlə düşmənə tərəf
Biliniz cəngizdir bizə sələf!
Giriniz meydana sanki şir,
Əlinizdə şəmşir ilə tir,
Dilinizdə olsun bu zikr,
Ya Allah, Ya Allah, Ya Allah
Mədətə yet!

Mətnə diqqət yetirsək: "Dilinizdə olsun bu zikr, Ya Allah, Ya Allah, Ya Allah, Mədətə yet!" burada "zikr", "Ya Allah" kimi ifadələrin aydın şəkildə dini ritorika – İslam ritorikası ilə yükləndiyinin şahidi olarıq. Zikr – Allahın qüdrət və əzəmətini bəyan edən dua kəlmələrinin təkrarlanmasından ibarət olan İslam mənəviyyat prinsipidir. Marşın sözlərindəki bu kəlmələr həm milli ruhun gücləndirilməsi, həm də dini dəyərlərlə silahlanmış xalqın düşmənə qarşı birliyi ideyasını vurğulayır. Üzeyir bəy tərəfindən dini motivlərin verilməsi marşın sadəcə bir döyüş çağırışı deyil, həm də mənəvi cəbhədəki səfərbərliyi əks etdirdiyini göstərir. O dövrdə Azərbaycan xalqı üçün dini və milli kimlik bir-birindən ayrılmaz idi. İslam təkcə bir din yox, həm də ictimai şüurun bir hissəsi idi. Ona görə "Ya Allah" nidası həm dua, həm də bir savaş çağırışı kimi işlənirdi.

Ü.Hacıbəylinin dini baxışları yalnız publisistik yaradıcılığında deyi, bəstəkar yaradıcılığında da müxtəlif səpkidə özünü büruzə verir. Musiqişünas Səadət Seyidova "Üzeyir Hacıbəyov və dini musiqi" məqaləsində bəstəkarın dini musiqi ilə bağlı yaradıcılıq nümunələrində dini mərasim, xüsusən "Şəbih" tamaşalarının icra üsullarını, konkret dini musiqi janrının musiqi mətnindən istifadə olunan sitatları, dini musiqinin motiv-avaz, ibarə, metro-ritm xüsusiyyətlərinin bədii hüdudlarının genişləndirilməsini qeyd edir [11, s.12].

Beləliklə, Azərbaycanda təməli "Şəbih"lərlə qoyulan ilk opera "Leyli və Məcnun"un bir çox səhnələrində dini musiqi ilə bağlılığın inkarolunmazlığı təsdiqlənir. Operada proloq rolunu oynayan "Şəbi-hicran" xoru dini musiqi ruhunda xalq musiqisindən götürülmüşdür. Bu musiqinin vurğunu olan Üzeyir Hacıbəyli hələ seminariyada oxuyarkən skripkada ifa edir, gənc yoldaşları ilə birgə xorla oxumağa səy göstərirdi. Operanın I şəklində Leyli və Məcnunun "Ah eylədiyim sərvi xuramanın üçündür" dueti matəm mərasim musiqisi olan ağı intonasiyaları üzərində qurulmuşdur. II pərdədən İbn Səlamın elçilərinin xoru "Ali cahani bilib gəlmişik ziyarətə" metro-ritmik quruluşuna görə fərqli olsa da, melodik intonasiyalarına görə "Hürrün tövbəsi" şəbihindən "Ey şahi dövran" dini oxumasına əsaslanır. III pərdədən "Söylə bir görək" xoru "Şəbih"lərdə səsləndirilən "Ey əmu bu səhrada bir içim su tapılmaz" mərsiyəsi ilə uyğunluq təşkil edir. Ü.Hacıbəylinin "Koroğlu" operasından V pərdədən xalqın "Gəl rəhm et" xorunun musiqi mətnində də dini oxumalarla bağlılıq özünü büruzə verir. Bundan əlavə sonuncu pərdənin əvvəlində edam meydanında carçıların "Ya! Əyyuhən nas!" deyə çağırışı bəstəkarın hər bir əsərində olduğu kimi "Koroğlu" operasında da ədəbi dilin təbiiliyinə, xəlqiliyinə xüsusi önəm verməsini daha nəzərə çarpdırır. Dini mövzularla əlaqəli bu musiqi nömrələrində Hacıbəyli, xalqın dini və əxlaqi dəyərlərini qorumağa, onlara hörmətlə yanaşmağa və eyni zamanda yeniliklər gətirərək xalqın musiqi mədəniyyətini daha da zənginləşdirməyə çalışmışdır.

Üzeyir Hacıbəylinin yaradıcılığında dini mövzu Azərbaycan bəstəkarlıq məktəbində dini-mistik elementlərin sənətə inteqrasiyasına zəmin yaratmışdır. Bəstəkarlarımızın yaradıcılığında dini-mənəvi dəyərlərin musiqi vasitəsilə ifadəsi, milli kimliyin qorunmasında və inkişafında mühüm rol oynamışdır. Musiqi sənət nümunələrində klassik muğamla dini motivlərin sintezi, sonrakı dövrlərdə Azərbaycan bəstəkarları üçün ilham mənbəyinə çevrilmişdir.

Musiqi tariximizdə ilk dəfə Azan səsindən orijinal formada istifadə edən bəstəkar Fikrət Əmirov olmuşdur. "Sevil" operasından uvertüra-proloqda məscidin minarəsindən yayılan müəzzinin səsi axşam ibadətinə çağırışdır. Azanın səsi mühüm simvolik məna daşıyır. Bu səda həm dini ruhu, həm də milli-mənəvi dəyərləri təcəssüm etdirir və tamaşaçını dərin mənəvi düşüncələrə sövq edir. Azan burada zaman və məkan sərhədlərini aşaraq, insanın daxili aləminə, vicdanına və ruhuna müraciət edir. Bəstəkar bu sədaya sırf dini məzmunla yanaşmayaraq, onu ümumbəşəri mənəvi çağırış kimi təqdim edir. F.Əmirovdan sonra Azan sədası Nazim Mirişlinin "Mərasim"

simfonik əsəri (1985), Azər Rzayevin “Bakı-90” (1990) simfoniyasından gəlir. N.Mirişlinin simfoniyasının “Mərasim”- “Processio” adlandırılması dini ayinlə bağlıdır. Xanəndənin ifası üçün yazılan səs tembr və intonasiya etibarilə Azan oxunmasını xatırladır. Bu səs mistik xarakter daşıyaraq mərasimdə yürüş edən kütləni hərəkətə gətirən, onları istiqamətləndirən və birləşdirən ilahi qüvvə kimi qəbul edilir. Vokal xətt *vibrafon* və *campane* kimi zərb alətlərinin yaratdığı zəngvari, rituallara xas fon səsləri üzərində təqdim olunur və bununla da əsərin dini-mərasim xarakteri daha da gücləndirilir.

Azər Rzayevin “Bakı-90” adlı 1990-cil yanvar hadisələrinə həsr olunmuş bu əsərdə “Qurani-Kərim”in “Bəqərə” surəsindən 5-ci ayənin səhnə arxasından oxunması Müəzzinin minarədən səslənən Azan səsinin kollaj yolu ilə daxil edilməsini göstərir. Bu bədii detal əsərdə həm dini-mənəvi duyğuların, həm də xalqın yaşadığı faciənin dərinliyinin vurğulanmasına xidmət edir. “Allahu əkbər” nidalarının səhnə arxasından eşidilməsi güclü emosional təsir bağışlayıraq yalnız dini çağırış kimi deyil, həm də bir millətin sarsılmaz ruhunun, Tanrıya sığınaraq öz kimliyinin, haqq və ədalətin simvolu kimi təqdim olunur. Müəzzinin azan səsi ilə “Bəqərə” surəsinin oxunuşunun kollaj şəklində birləşdirilməsi tamaşaçıda ilahi bir ucalıq hissi yaratmaqla bərabər 20 Yanvar hadisələrinin bir xalq üçün sadəcə siyasi yox, həm də mənəvi sarsıntı olduğunu göstərir. Bu kompozisiya vasitəsilə bəstəkar Azərbaycan xalqının həm vətənpərvərlik ruhunu, həm də dini-mənəvi dayaqlarını ön plana çıxarır.

Azər Dadaşovun “20 yanvar” adlı (1990) 9-cu simfoniyası da Azərbaycan xalqının tarixi faciələrindən biri olan 1990-cı il 20 Yanvar hadisələrinə həsr olunmuşdur. Müəllifin partituranın başlanğıcında verdiyi “Religiozo con tristezza” (dini ruhda, kədərli) ifadəsi bu simfoniyanın ümumi estetik və emosional mahiyyətini öncədən müəyyən edir. Bu açıqlama dinləyiciyə əsərin yalnız musiqi yox, eyni zamanda mənəvi düşüncə və xatirə forması daşıdığını göstərir. Simfoniyada ən mühüm və fərqli məqamlardan biri xanəndənin iştirakıdır. O, klassik muğam ifası vasitəsilə əsərdə “şərhçi” funksiyasını yerinə yetirir. Xanəndə xalqın səsinə çevrilərək, dərdi, faciəni və ilahi ədalətə inamı ifadə edir. Onun muğam ifasında “Uca Tanrıdan” imdad istəməsi, xalqın yaşadığı ağrı-acının mənəvi bir hayqırtısı kimi səslənir. Burada muğam sadəcə musiqi yox, həm də dua və yalvarış funksiyası daşıyır. Xanəndənin səsi ilə simfonik orkestr və xorun səslərindən ibarət polifonik lövhə xalqın səsi ilə Tanrı arasında qurulan mənəvi körpünü təcəssüm etdirir. Simfoniyanın sonunda bir çağırış eşidilir: o, insanları dinə, imana səsləyir.

Avropa avanqard musiqisinin ideya varisi olan Fərəc Qarayev 1997-ci ildə yazdığı “Xütbə, muğam və surə” əsərində ilk dəfə “Qurani-kərim”ə müraciət edərək milli mədəni şüurun dərinliklərinə enmiş, din və ənənəvi musiqi ilə müasir estetik prinsipləri sintez etməyə çalışmışdır. Fərəc Qarayevin 1997-ci ildə bəstələdiyi “Xütbə, muğam və surə” əsəri Azərbaycan musiqisində avanqard axtarışların zirvə nöqtələrindən biri kimi qiymətləndirilə bilər. İnstrumental ansambl - ənənəvi simli və nəfəs alətləri, tar, gitara, banco, mandolina, marimbafon və maqnit lenti üçün yazılmış bu əsərdə bəstəkar muğam, dodekafoniya, Quran oxuması ilə qərbin avanqard intertekstuallığı və dini vokal üslubun orijinal sintezini verib. Burada “xütbə”, “muğam” və “surə” anlayışları simvolik olaraq mətnaltı məna daşıyır. “Xütbə” dini-tarixi təməlləri, “muğam” milli musiqi irsini, “surə” isə müqəddəs mətni təmsil edir və bunlar avanqard kompozisiya texnikası ilə üzvi şəkildə birləşdirilir. Bu əsər öz janr və ifadə çərçivəsini aşaraq həm musiqi, həm də fəlsəfi-estetik baxımdan mühüm bir hadisəyə çevrilmişdir. Əsərin əsas ideyası ənənə və müasirliyin, din və incəsənətin bir-birini inkar etməyən, əksinə tamamlayan tərəflər kimi təqdim olunmasıdır.

F.Qarayevin bu əsərində Quran ayələrinin səsləndirilməsi təkcə dini deyil, həm də səsin ruhani dərinliyini ifadə edən bir akt kimi çıxış edir. “Qurani-kərim”dən maqnit lentinə yazılmış 75-ci əl-Qiyamə surəsinin sədaları “Qiyamət” günü ilə xəbərdarlıq edir. Bəstəkar bu ayələri adi vokal səslənmə kimi deyil, musiqi lövhəsinin ayrılmaz hissəsi kimi təqdim edir. Beləliklə, əsər orijinal dini və fəlsəfi məna daşıyan konseptual layihəyə çevrilir.

“Xütbə, muğam və surə” təkcə Fərəc Qarayevin yaradıcılığında deyil, ümumən Azərbaycan avanqard musiqisində mühüm mərhələdir. Bu əsər bir tərəfdən sovet dönəmindən sonrakı dövrdə milli-mədəni kimliyin yenidən qurulması, digər tərəfdən isə musiqi dili ilə bu kimliyin tədqiqi və ifadəsi baxımından qiymətli bir sənət nümunəsidir.

Rəhilə Həsənova yaradıcılığında dini, ilahi musiqiyə müraciət edərək yazdığı kompozisiyalarla XXI əsr müasir Azərbaycan musiqisində yeni bir mərhələ açmışdır. Orqan üçün "Qəsidə" simfoniyası (1991), simli kvartet, tenor və bas üçün "Dərviş" (1992), simli, nəfəsli, vokal kvartetlər və piano üçün "Mərsiyə" (1993), "Səma" kimi əsərlərilə ənənəvi ilahi musiqini müasir kompozisiya texnikaları ilə birləşdirərək orijinal üslub formalaşdırmış, yeni obrazlar və ideyalar meydana gətirmişdir. Bəstəkarın əsərlərində sufi fəlsəfəsi və nəzəriyyəsinin ən əsas cəhəti olan Tanrıya məhəbbət əsas yer tutur. Rəhilə Həsənova sufizmin fəlsəfi dərinliyini musiqidə yüksək bədii səviyyədə təcəssüm etdirən ik azərbaycanlı bəstəkar olub.

Firəngiz Əlizadənin yazdığı "Dərviş" əsərində də (2000) Allaha ibadət edən sufi obrazı canlandırılır. Nəsiminin "Mən ki, dərvişəm, fəqirəm, padişahi-aləməm" qəzəlinin əsasında yaranan bu əsər xanəndə, Avropa simli alətlər üçlüyü - violin, viola, violonçel və üç milli musiqi aləti - tütək (ney), qanun və qoşa nağaradan ibarət septet üçün nəzərdə tutulub. Əsərin əsas semantik daşıyıcıları — violonçel, ney və qoşa nağaradır. Bu üç alət sufi dünyagörüşünün əsas elementlərini — ilahi həqiqətləri dərketmə, qəlb səsi və vəcd (trans) halını təmsil edir. Ney – "Mövləviyyə" sufi təriqətinin banisi Cəlaləddin Rumiyə görə Allahla qovuşmaq istəyinin simvolu kimi dərvişlərin dəqiq trayektoriya ürə fırlanaraq hərəkət etdikləri dini ritualı müşayət edir. (Rəhilə Həsənovanın "Səma" əsərində də sufi simvolikasında mühüm rol oynayan ney fleytanın səsi ilə verilir) Violonçel - qərb musiqi aləti olsa da, daxili səsin, insan qəlbinin dərinliklərindən gələn, bəzən iztirablı, bəzən isə nurlanmış, saflaşmış halının ifadəsinə xidmət edir. O, ney ilə dialoqda olaraq ruh və bədən arasındakı əlaqəni əks etdirir. Qoşa nağara isə Allahın kainatı yaratmaq fərmanının rəmzi kimi qəbul olunur. O, ritmik element kimi real dünyadan uzaqlaşmaq üçün zikr halına keçidi simvolizə edir. Kompozisiyanın sonunda dərviş "mistik yol"u qət edir, ruhu saflaşır və Tanrıya qovuşur.

Firəngiz Əlizadənin yaradıcılığında dini-fəlsəfi mövzu "Mərsiyə" adlı Violonçel konserti (2002), Avropa, Asiya və Qafqaz musiqi alətlərindən ibarət "Atlas" orkestri üçün İ.Nəsiminin sözlərinə "Zikr"əsəri (2004), solo-bariton, xor və simfonik orkestr üçün "Nəsimi passionu"nda (2017) davam etdirilir.

Azərbaycan bəstəkarlarından Cəlal Abbasov Şərq poeziyasının lirik janrı olan, mənbəyi qədim türk dini mərasimlərindən gələn "Münacat" janrına müraciət etmiş, orijinal kompozisiyalar – solo *contrabasso* üçün "Münacat I" (1992), solo *viola* üçün "Münacat II" (1994), solo *marimba* üçün "Münacat III" (1998) əsərlərini yazmışdır. Münacat (ərəb dilindən tərcümədə Allaha müraciət, yalvarış deməkdir) əvvəllər Quran surələrinə uyğun qafiyələnmiş nəsr şəklində yaranmış, sonradan şeir formasında sufi poeziyasında təsdiq olunaraq sevilən lirik janrlardan birinə çevrilmişdir. Güclü emosional təsir sayəsində münacat dinləyicidə mərhəmət hissi oyadır. Eyni zamanda bu cür nəğmələr Uca Tanrıya ən məhrəm düşüncələr, müqəddəs arzularla müraciət olub, daxili saflaşmaya, ifaçının özü üçün mənəvi yüksəlişə səbəb olur. Bəstəkarın musiqi təfəkkürünün bütün təzahür müxtəlifliyində əsas məqsədi mənəviyyat axtarışıdır. Şərq mədəniyyətindən gələn yüksək əxlaqi dəyərlər, emosional-etik təfəkkür, mənəvi- əxlaqi fikirlər, Tanrı qüdrəti qarşısında acilik bu əsərlərin musiqisində öz əksini tapmışdır.

Ramiz Mirişlinin "Varlığın zinəti" adlı vokal-simfonik əsəri klassik Azərbaycan poeziyası ilə İslam mədəniyyətinin musiqi vasitəsilə vəhdətini təcəssüm etdirən nadir nümunələrdəndir. Əsər dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasından "Peyğəmbərin tərifi" adlı hissə əsasında yazılmış, Məhəmməd peyğəmbərə ithaf etmişdir. İlk əvvəl "Azan" çağırışı ilə giriş əsərin dini ruhunu və mənəvi çağırışını simvolizə edir. Xorun bas səslərinin fonunda qiraətçinin ifasında təqdim olunan "Qurani-Kərim"dən "Kövsər" surəsi də Məhəmməd peyğəmbərə xüsusi bir nemət kimi təqdim olunan "Kövsər" bulağından bəhs edir və onu ümumilikdə Allahın elçisinə verdiyi lütflərin simvolu kimi təqdim edir. Əsər həm musiqi, həm də dini məzmun baxımından vokal-simfonik janrda yazılmış maraqlı kompozisiyadır.

Tahir Əkbər Bəxtiyar Vahabzadənin sözlərinə "Amin", xor, solist, simfonik orkestr üçün "Ya rəbb" əsərlərində dini mövzu ilə bağlı ənənələri davam etdirmişdir.

Aydın Əzimov 2012-ci ildə "Qurani-kərimin tiləvatının deşifrəsi, nota alınması, tarixi və nəzəri təhlili" adlı elmi tədqiqat işini yazmışdır. Onun Hüseyn Cavidin "İblis" dramına yazdığı musiqi əsərin fəlsəfi və psixoloji dərinliyini musiqi dili ilə ifadə etməyə yönəlmişdir. İblisin

Qiyamət gününün gəlməsini xəbər verən Şur çağırışı əsər boyu təkrarlanaraq obrazın hər dəfə tanıdılmasını təmin edir və onun daxili səsi kimi təqdim olunur.

Oqtay Rəcəbov 2005-ci ildə 10 mahnıdan ibarət “İlahi nəğmələr” silsiləsini yazmışdır. Bu silsiləyə Qəşəm İsmayılbəylinin sözlərinə “La İlahə-İllələh”, “Ya Rəsulallah Məhəmməd”, “La fəta illa Əli”, “Ya Məhəmməd” mahnıları ilə bərabər, İskəndər Etibar, Fəxrəddin Meydanlının sözlərinə yazılmış dini musiqi nümunələri də daxildir.

Sərdar Fərəcov Üzeyir Hacıbəylinin “Bahar nəğməsi” mahnısının əsasında simli kvartet üçün atəşpərəstlik ideyasını əks etdirən 3 pyes – “Sübh duası”, “Oda alqış”, “Bahar nəğməsi” (1991) pyeslərini yazmışdır. “Kərbəlada doğan günəş” tamaşasına (2004) yazılan 10 mərsiyə İmam Hüseynin Kərbəla hadisəsindəki şəhadətinə həsr olunmaqla yanaşı, bəstəkarın islam dininə olan baxışlarını əks etdirir.

Göründüyü kimi, Üzeyir Hacıbəylidən başlayan dini dəyərlərə yeni yanaşma ilə Azərbaycan musiqi mədəniyyətində mühüm bir mərhələnin əsasını qoyulmuşdur. Zaman keçdikcə bu tendensiya yeni bəstəkar nəslinin yaradıcılığında davam etdirilmişdir. Azərbaycan bəstəkarları dini-mənəvi dəyərləri müxtəlif formalı əsərlərdə ifadə etməyə çalışmışlar. XX əsrin ortalarında Sovet ideologiyasının təzyiqlərinə baxmayaraq, bəstəkarlar dini mövzuları simvolik formada musiqiyə daxil edirdilər. Bu, həm musiqili səhnə əsərlərində, həm də instrumental musiqidə, eyni zamanda muğam əsaslı əsərlərdə və vokal-simfonik kompozisiyalarda özünü göstərirdi. Müstəqillik dövründən sonra isə bu mövzu daha da açıq formada bəstəkar yaradıcılığına daxil olur. Müasir bəstəkarlar İslam mədəniyyətinin dərinliklərinə müraciət edərək dini mətnlərə, dualara və Quran ayələrinə əsaslanan musiqi əsərləri yaradırlar. Dini motivlər artıq yalnız ibadət və rituala bağlı deyil, həm də fəlsəfi, mənəvi, bəşəri kontekstlərdə bəstəkarların yaradıcılığında təqdim olunur. Bu isə onu göstərir ki, dini mövzulu musiqi Azərbaycan bəstəkar yaradıcılığında yalnız keçmişin mirası deyil, həm də gələcəyə yönəlmiş yaradıcı bir tendensiyadır.

Beləliklə, Üzeyir Hacıbəylidən başlanan bu xətt zamanla forma və ifadə baxımından dəyişsə də, onun mahiyyəti — mənəvi axtarış, Tanrı ilə ünsiyyət və insanın daxili dünyasının musiqi ilə ifadəsi — daim qorunub saxlanılır. Bu xətt milli musiqi irsimizin, ayrılmaz bir hissəsi olaraq bu gün də yaşamaqda və inkişaf etməkdədir.

## ƏDƏBİYYAT

1. Dadaşzadə Z.A. Azərbaycan simfoniyası (1960-1980-cı illər): janrın əsas inkişaf təmayüllərinə dair. Bakı: Ziya, 2012, 239 s.
2. Əliyeva F.Ş. Üzeyir Hacıbəyli – şəxsiyyət və cəmiyyət. Bakı, Şərq-Qərb, 2014, 368.
3. Hacıbəli Ü.Ə. Seçilmiş əsərləri. I cild B.: Şərq-Qərb, 2005, 408s.
4. Hacıbəli Ü.Ə. Seçilmiş əsərləri. II cild B.: Şərq-Qərb, 2005, 456s.
5. Hacıbəli Ü.Ə. Seçilmiş əsərləri. B.: Yazıçı, 1985,653s.
6. Hacıbəli Ü.Ə. Azərbaycan türklərinin musiqisi haqqında. (Təqdim edəni, ön söz və lüğətin müəllifi F.Əliyeva). Bakı: Adiloğlu, 2005. 74s.
7. Hacıbəyli Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. Bakı: Apostrof, 2010, 176 s.
8. İsmayılov M.C. Azərbaycan musiqisinin məqam və muğam nəzəriyyəsi. Bakı, 2016, 224 s.
9. Seyidova S.A. Dini musiqinin bəzi prinsipləri haqqında. // “Musiqi dünyası” jurnalı. Bakı, 1999, № 1. s. 79-81.
10. Seyidova S.A. Üzeyir Hacıbəyov və dini musiqi. // “Musiqi dünyası” jurnalı. Bakı, 2000, № 3-4(5). s. 139-141.
11. Seyidova S.A. Seçilmiş məqalələr. Bakı, 2016, 137s.
12. Высоцкая, М.С. Музыка XX века: от авангарда к постмодерну. Учебное пособие / М.С.Высоцкая, Г.В.Григорьева. – Москва: Московская консерватория, – 2011. – 440 с.

**Sevinc Seyidova**

**UZEYIR HAJIBEYLI AND A NEW APPROACH TO RELIGIOUS VALUES**

The article examines the multifaceted approach to religious issues of the great composer, educator, playwright, publicist, musicologist, scholar, and public figure Uzeyir Hajibeyli. His publicistic work emphasizes the negative effects of distorted forms of religion on society and the importance of combating this false propaganda. The important influence of religious ceremonies and folk performances held in connection with historical events in the Islamic world on the creation of the classical opera genre is explained. Spiritual search, communication with God, and the expression of a person's inner world through music constitute the main direction of the article. The article also highlights the religious theme in Uzeyir Hajibeyli's music and the continuation of this trend in the work of Azerbaijani composers.

**Keywords***: Uzeyir Hajibeyli, Islamic religion, religious music, shabih, "Holy Quran", dervish*

**Севиндж Сейидова**

**УЗЕИР ГАДЖИБЕЙЛИ И НОВЫЙ ПОДХОД К РЕЛИГИОЗНЫМ ЦЕННОСТЯМ**

В статье рассматривается многогранный подход к религиозной проблематике великого композитора, просветителя, драматурга, публициста, музыковеда, общественного деятеля Узеира Гаджибейли. В своих публицистических работах он подчеркивает негативное влияние искаженных форм религии на общество и важность борьбы с этой ложной пропагандой. Объясняется важное влияние религиозных обрядов и народных представлений, связанных с историческими событиями в исламском мире, на формирование жанра классической оперы. Духовный поиск, общение с Богом и выражение своего внутреннего мира через музыку составляют основную тему статьи. В статье также освещается религиозная тематика в музыке Узеира Гаджибейли и продолжение этой тенденции в творчестве азербайджанских композиторов.

**Ключевые слова:** *Узеир Гаджибейли, исламская религия, религиозная музыка, шабих, «Священный Коран», дервиш*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 14.10.2025**
**Son daxilolma tarixi:13.11.2025**